# Sea Breeze Şöhrət Xiyabanında

## Maqsud İbrahimbəyovun ulduzunun açılışı olub



**Oktyabrın 27-də Maqsud İbrahimbəyovun həyat yoldaşı, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru, Azərbaycan Fotoqraflar İttifaqının üzvü Anna İbrahimbəyovanın iştirakı ilə görkəmli yazıçının ulduzunun açılış mərasimi keçirildi.**

Qonaqlar arasında mədəniyyət nazirinin müavini Murad Hüseynov, Xalq yazıçısı Anar, bir qrup mədəniyyət və incəsənət xadimləri, Maqsud İbrahimbəyovun dostları, qohumları və yaxınları da var idi.

Sea Breeze kurort şəhərciyinin sahibi Emin Ağalarov qeyd edib ki, o, Maqsud İbrahimbəyovu hələ uşaqlıq çağlarından tanıyır: "Biz Nardaranda bağ qonşusu olmuşuq, uşaqlığımız boyu dostum Fuad İbrahimbəyovla birlikdə bağa gəlib-getmiş tanınmış yaradıcı şəxsiyyətlər - aktyorlar, yazıçılar, dramaturqları görmüşük".



Anar Rzayev Maqsud İbrahimbəyovu xatırlayaraq qeyd etdi: "Biz 62 il dost olmuşuq, bu, xeyli uzun müddətdir. Dostlarımdan daha uzun həyat sürmək hissi çox acı bir hissdir, amma fəxr edirəm ki, dostum öz əsərləri ilə bu gözəl ulduz kimi geri qayıdır. Kitabları sağ olduğu müddətdə Maqsud da yaşayır".

Mixail Qusman qeyd edib ki, Maqsud İbrahimbəyovun ulduzunun açılışı üçün müstəsna uğurlu gün seçilib, çünki yazıçı Nardaranda məhz belə - sərin və bir qədər küləkli havanı sevirdi.

Yazıçının ulduzunun açılışı onun əsərləri əsasında çəkilmiş filmlərdən hamının sevimli musiqilərin müşayiəti ilə baş tutdu. Anna İbrahimbəyovaya Maqsud İbrahimbəyovun ulduzu olan xatirə çərçivəsi hədiyyə edildi. Mərasim "Bosfor" türk restoranında davam etdi.

Maqsud İbrahimbəyov Azərbaycanın Xalq yazıçısı, dramaturq, ssenaristdir, kitabları dünyanın bir çox ölkələrində nəşr olunub. 2012-ci ildə yazıçı Ədəbiyyat üzrə Nobel Mükafatına namizəd olub. Maqsud İbrahimbəyovun bir çox əsərləri həm Azərbaycanda, həm də xaricdə lentə alınıb, pyesləri dünyanın 50 teatrında tamaşaya qoyulub.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**